*Azərbaycan dili və ədəbiyyat tədrisi*
2025 / Cild 71, Say 3 / 37–44
https://doi.org/10.48445/z5263-6591-0396-a

# Uşaq dramlarının etnokulturoloji semantikası

***Şöhrət Məmmədova*** [1]

**XÜLASƏ**

*Uşaq ədəbiyyatının mövzu və mündəricə zənginliyində səhnə əsərləri mühüm yer tutur. XX əsrin əvvəllərindən başlayaraq ayrı-ayrı onilliklərdə sənətkarlar bu janra müraciət edərək daha canlı və təsirli dram əsərləri yaratmışlar. A. Səhhət, A. Şaiq, M. M. Seyidzadə, M. Dilbazi, M.H.Təhmasib, T. Əyyubov, Z. Xəlil, B. Vahabzadə, S. Axundov və digər mütəfəkkirlərin yaratdıqları səhnə əsərləri ümumi ruh və zəngin məzmun baxımından uşaqların fantaziyasını, hadisələrə münasibətini və insani dəyərlər üzərində tərbiyəsini əks etdirir. Müxtəlif hadisə və əhvalatları əhatə edən bu nümunələr folklor haqqında müəyyən bir təsəvvür formalaşdırır. Xalq dramları uşaq səhnə əsərlərində struktur və canlandırma üsulları baxımından qaynaq funksiyasını yerinə yetirir. Uzaq keçmişdən günümüzədək baş verən əhvalat və hadisələri olduğu kimi çatdıran xalq dramları, meydan tamaşaları, şəbihlər məzmun fakturası və canlandırma üsullarının rəngarəngliyi ilə spesifikləşir. Müxtəlif mövzularda yaranan səhnə əsərləri mərasim səciyyəsi, ictimai məzmunu və ailə-məişət problemlərini əksetdirmə xüsusiyyəti ilə fərqlənir. Buradakı kolliziyalar, dialoqlar, monoloqlar, hadisə və əhvalat səviyyəsində özünü göstərən təzadlar, ziddiyətli qarşıdurmalar müxtəlif aspektlərdə uşaq ədəbiyyatının yazılı qolunda özünəməxsus yer tutur. Bütün bu nüansların tipoloji səviyyədə təhlili və mahiyyət kontekstində sərgilədiyi funksional mənzərə sistemli təhlilləri zəruriləşdirir.*

**AÇAR SÖZLƏR**
*xalq dramları, uşaq səhnə əsərləri, dialoq, monoloq, nağıl-pyes*

**MƏQALƏ TARİXÇƏSİ**
Göndərilib: 25.04.2025
Qəbul edilib: 31.07.2025

---

[1] Filologiya üzrə fəlsəfə doktoru, dosent, Azərbaycan Dövlət Pedaqoji Universiteti. Azərbaycan.
https://orcid.org/0009-0006-6553-6385 | sohret.nesirova24@gmail.com

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0) 

*Teaching of Azerbaijani Language and Literature*
2025 / Volume 71, Issue 3 / 37–44
https://doi.org/10.48445/z5263-6591-0396-a

# Ethnocultural Semantics of Children's Dramas

***Shohrat Mammadova*** [1]

**ABSTRACT**
*An important part of children's literature's wealth of themes and content is stage productions. Starting from the beginning of the 20th century, in different decades, artists have created drama works that are more vivid and impressively observed by applying this form. Stage productions created by A. Sahhat, A. Shaig, M. M. Seyidzade, M. Dilbazi, M. H. Tahmasib, T. Ayyubov, Z.Khalil, B. Vahabzade, S. Akhundov and others with their general spirit and rich texture of the content stimulate children's fantasy, stimulate children's fantasy, show sensitivity to events, reflect attitudes, and contribute to upbringing on human values. Covering a variety of events and stories, these examples form a striking image by preferring the presentation methods from folklore. Folk dramas serve as a resource for children's stage productions in terms of structure and methods of animation. Folk dramas, street performances, and shahibs, which show greatness in covering everything from the old imagination to the present day, are characterized by their content texture and variety of animation methods. Stage works created on various topics are characterized by their ceremonial nature, the purpose of covering public content, and the feature of reflecting family and household problems. Collisions, dialogues, monologues, ups and downs and confrontations manifested at the level of events and stories are successfully repeated in different aspects, taking a place in the written branch of children's literature. As a whole, their analysis at the typological level and the functional picture they exhibit in the context of the essence necessitates systematic analysis.*

**KEYWORDS**
*folk dramas, children's stage works, dialogue, monologue, fairy-tale-play*

**ARTICLE HISTORY**
Received: 25.04.2025
Accepted: 31.07.2025

---

[1] Doctor of Philosophy in Philology, Associate Professor, Azerbaijan State Pedagogical University. Azerbaijan.
https://orcid.org/0009-0006-6553-6385 | sohret.nesirova24@gmail.com

 Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

## Giriş

Uşaq ədəbiyyatının kəmiyyət və keyfiyyət baxımından zənginləşməsi folklor qaynaqlarına, cəmiyyətin həyat tərzi ilə bağlı münasibətlərə və tarixi dövrlər boyunca formalaşan davranış modellərinə əsaslanır. Ədəbiyyatın yazılı qolu bu zənginliklərdən bəhrələnərək müxtəlif dövrlərdə dramatik üsluba əsaslanmış və gənc nəslin milli-mənəvi dəyərlərinin formalaşmasında mühüm rol oynamışdır. A. Şaiqin "Fitnə", "Nüşabə", A.Səhhətin "Tağı və Nağı", "Cəhalət səmərəsi, yaxud bir yetimin xoşbəxtliyi", Ə.Abbasovun "Alma bağı", "Dostluq eşqinə", "Qisas", "Məlik Məmməd", "Aqil və Sərvinaz", M. Seyidzadənin "Zəfər", M. H. Təhmasibin "Çiçəkli dağ", "Çandranın kəli", T.Əyyubovun "Laçın", Z. Xəlilin "Gənc ustalar", B. Vahabzadənin "Lalə", S. Axundovun "Zərif tellər", Ə. Səmədovun "Sehrlər aləmində", "Kibrit tellər" və bu kimi uşaq dramları və nağıl-pyesləri buna misal göstərilə bilər. Bu əsərlərin müxtəlif kontekstlərdə təhlili uşaq dünyasını əks etdirmə imkanlarının periferik xarakteri ilə sistemli yanaşmaları zəruriləşdirir.

## Metodlar

Tədqiqat işində tarixi-müqayisəli metoddan istifadə olunmaqla Azərbaycan uşaq ədəbiyyatında folklordan bəhrələnən uşaq dramaturgiyası araşdırılmışdır.

Bu məqsədlə Abdulla Şaiqin, Abbas Səhhətin, Mirvarid Dilbazinin, Mirmehdi Seyidzadənin folklor motivli uşaq dramları üzərində təhlillər aparılmış, əsərlərdən gətirilən nümunələr əsasında onların folklorla bağlılığı tədqiq edilmişdir.

## Nəticələr

Qədim və zəngin ənənəyə malik Azərbaycan uşaq dramaturgiyası öz kökləri, rəngarəngliyi və milliliyi ilə xalq ədəbiyyatına sıx bağlıdır. Humanist ideyalar hər zaman xalqın yaratdığı folklor nümunələrində ifadəsini tapmışdır.

Nəsillər boyu yaşadılan bu sənət nümunələri zamanla saflaşaraq günümüzə qədər gəlib çatmış və xalq sənətkarlarının yaratdığı şeir, nəğmə, poema və dram əsərlərinin səciyyəvi xüsusiyyətlərinə çevrilmişdir.

Azərbaycan uşaq ədəbiyyatında folklora əsaslanaraq yaranan uşaq dramaturgiyasında xalq uşaq dramlarının məzmun və üslub baxımından əhəmiyyəti xüsusi yer tutur.

## Müzakirə

*Uşaq dramlarının folklor qaynağı*

Dramatik əsərlərdəki hərəkətlilik, kolliziya, qarşıdurmalar, mürəkkəb situasiyalar, pantomima elementləri və obrazların nitqi, hadisə axarında müşayiət olunan təntənəli xor ifaları və s. uşaqlar üçün daha təsiredici faktorlara çevrilir və onların dünyagörüşünün formalaşmasında əhəmiyyətli rol oynayır. Məlum olduğu kimi, "lirika ədəbiyyatı, epos tarixi

tərənnüm edir. Dram isə həyatı göstərir. İbtidai poeziyanın səciyyəvi xüsusiyyəti sadəlövhlük, antik dövrün sadəlik, yeni dövrün isə həqiqətdir. Dramın qəhrəmanı insandır. Dram həyatın aynası olmalıdır, hər şeyi canlandıran aynadır" (Hacıyev, 2010). Uşaq ədəbiyyatında dramın təsir gücü və funksional xarakteri daha aydın və qabarıq şəkildə özünü göstərir.

Oyun və hərəkət elementləri, hadisə axarında qarşıdurmalar, canlandırma üsullarının polifonik mənzərəsi folklor yaddaşında arxaix və stixial xarakterli bir normativ baza formalaşdırmışdır. "Kosa-kosa", "Şəbi oyunu", "Tənbəl qardaş", "Əkəndə yox, biçəndə yox, yeyəndə ortaq qardaş", "Xan-xan", "Keçəl", "Tapdıq çoban" kimi xalq dramları əsrlər boyunca xalqın həyat tərzini, əxlaq normalarını, davranış modellərini və dünyagörüşünü əks etdirmək baxımından mühüm mədəni kodlar yaratmışdır. Bu dramların tərkibindəki oyun və rəqs elementləri, xor ünsürləri, mimik ifadə vasitələri və qarşıdurmaların strukturu uşaq dünyası üçün cəlbedici bədii platforma formalaşdırır. Folklor yaddaşından süzülüb gələn bu elementlər uşaq dram janrının poetikasına təsir etmiş, nəqletmə üsullarından janr əhatəliliyinə qədər olan müxtəliflik xronotop funksiyası ilə uşaq maraqlarını profan səviyyədə canlandırır.

Ümumiyyətlə, folklorun bütün janrlarında dramatik ünsürlər bu və ya digər şəkildə özünü göstərə bilir. Nağıl danışarkən hərəkətlərdə, mimikalarda, davranışlarda, eləcə də rəqs və oyunlarda, tapmaca və yanıltmaclarda, dastanlarda, aşıq şeirlərində dram ünsürləri müxtəlif səviyyələrdə özünü göstərir. Ədəbiyyatın yazılı qolu da bu folklor qaynaqlarından çıxış edərək nağıl motivləri, müxtəlif əhvalat və hekayətlər əsasında uşaq pyeslərinin yaranmasına üstünlük verir. "Şəngülüm, Şüngülüm, Məngülüm", "Pıspısa xanım və Siçan bəy", "Cik-cik xanım", "Məlikməmməd", "Göyçək Fatma" ("Azərbaycan ədəbiyyatı inciləri", 1985) və s. əsasında yaranan səhnə əsərləri bunun klassik nümunəsidir.

"Xalq dramları və tamaşaları qədim azərbaycanlıların müxtəlif səbəblərlə təşkil etdikləri mərasimlərdən yaranıb inkişaf etmişdir. Mövsüm və məişət mərasimlərinin hər birində bu və ya digər dərəcədə dram ünsürlərinə rast gəlinir. Bu ünsürlər, şübhəsiz, zaman keçdikcə daha da inkişaf etdirilmiş və təkmilləşdirilmişdir. Beləliklə, həqiqi mənada sırf dram xüsusiyyətlərinə malik tamaşalar ayrılıb müstəqil şəkildə yaşamağa başlamışdır. Qeyd etmək lazımdır ki, Azərbaycan folklorunun hər bir janrında mükalimələrə, dram ünsürlərinə rast gələ bilərik" (Əfəndiyev, 1992). Ədəbiyyatın yazılı qolu bunları əsas qaynaq kimi dəyərləndirərək uşaqlar üçün səhnə əsərləri yaratmağa üstünlük verir.

Mövzu rəngarəngliyi ilə seçilən bədii nümunələrin yaranması məzmun xətlərinin mükəmməlliyi və tərbiyəvi təsir funksiyasının aparıcılığı ilə sistemli təhlilləri zəruriləşdirir. Məsələn, A. Səhhətin "Cəhalət səmərəsi, yaxud bir yetimin xoşbəxtliyi" timsalında baş verənlər məktəb həyatını, uşaqların dərs hazırlığını, müəllim-şagird münasibətlərini əks etdirmək baxımından faydalıdır. Faiq əfəndi (müəllim) Əsəd Əhmədov, Saday Həsənzadə,

İsmayıl, Dadaş və başqalarının timsalında elmə, təhsilə marağı, təlim-tərbiyə məsələlərinə həssaslığı və yüksək davranış mədəniyyəti hadisələrin axarında açıqlayır.

"Faiq əfəndi: Döşünü düyməlә, paltarını düzəlt, biədəb. Bu nədir qarnın, döşün açıq, gəlib qabağımda dayanmısan. Get Sadayı bura çağır *(İsmayıl gedir. Səhnənin arxasında ucadan deyir).* Saday, Saday!

İsmayıl: Buyur, buyur, indi sən də mənim kimi naharsız qalarsan.

Saday: *(Saday qorxa-qorxa gəlir və dayanır qapı ağzında).* Müəllim əfəndi, inanız ki, mən bir şey etməmişəm. İsmayıl özü...

Faiq əfəndi: *(onun sözünü kəsib).* Saday, qulaq as, dinlə. Sən yetim olduğun üçün Allah-taalanın sənə yazığı gəldi. Sən Əsəddən xoşbəxt oldun. Daha Qoriyə onu göndərməyəcəyəm. Get hazırlan, sabah Qoriyə səni göndərəcəyəm" (Səhhət, Şaiq, 2006. s. 91).

Göründüyü kimi, XX əsrin əvvəllərindəki maarif işi, təhsil problemləri, şagird maraqları haqqında əsaslı təsəvvür formalaşdıran bu pyes bacarıq və qabiliyyətin qiymətləndirilməsi baxımından dolğun mənzərə sərgiləyir. A. Səhhətin bir müəllim kimi müqəddəs normativləri, bacarıq və qabiliyyəti düzgün qiymətləndirməsi kiçik epizodlarla aydın şəkildə özünü göstərir. Ümumiyyətlə, bədii mətndə hadisələrin axarında müəllifin obrazlaşması səhnə əsərlərində müxtəlif səviyyələrdə öz əksini tapır. A. Səhhətin də Faiq əfəndinin timsalında obrazlaşması bunun bariz nümunəsidir.

Nəqletmə zamanı səhnələşdirmə elementləri bütün janrlarda bu və ya digər dərəcədə özünü göstərir. Nağıl danışanlar, dastançı aşıqlar, qaravəlli danışanlar, uşaq oyunları, tapmacalar bu baxımdan özünəməxsus bir zənginliyi ilə spesifikləşir. "Peşəkar nağılçılar, aşıqlar, körpələrinə nağıl danışan analar təhkiyə ilə bərabər hadisələrin gedişindən asılı olaraq mimikadan, bədən hərəkətlərindən istifadə etmişlər. Bir növ söylənilən folklor nümunəsi səhnələşdirilmişdir. Hər hansı bir nağılda iştirak edən surətlərin öz dili ilə danışan nağılçılar kiçik bir səhnənin yaradıcısına çevrilirlər" (Vəliyev, 1985). "Göyçək Fatma", "Məlikməmməd", "Ovçu Pirim" kimi nağıllar buna misal ola bilər. Eləcə də "Şəngülüm, Şüngülüm, Məngülüm" nağılında situasiya və hadisələr axarında obrazların səs tonunun enib qalxması, kəskin və titrək tonu bunun bariz nümunəsidir. Bütövlükdə bu amillər təsiredicilik funksiyası ilə seçilərək ədəbiyyatın yazılı qolunda müxtəlif səviyyələrdə təkrarlanır.

A. Şaiqin "Gözəl bahar", "Danışan kukla", "İntiqamçı xoruz", "Eloğlu", "Vətən", "Bir saatlıq xəlifə" və s. nağıl-pyesləri şifahi yaddaşdan gələn ənənəni əks etdirmək xüsusiyyəti ilə spesifikləşir.

Şair:

Sallanaraq, canım, böylə nerəyə?

Qadın:

Bax, bu cığır enir bir şux dərəyə.
Tut izimi, arxamca gəl, tez gedək,
O sevdiyin yerləri bir seyr edək.

Çoxdandır həsrətəm o mənzərəyə,
Ay doğmuşkən gəl enək bu dərəyə.

Şair:

Tələsməyin nə mənası? Bir dayan...”
(Şaiq, 2005, s. 263).

Göründüyü kimi, şair və qadının dialoqu həyatın gözəlliklərini təsvir və təqdim etmə baxımından mühüm əhəmiyyət kəsb edir.

*Simvolik işarələnmə və semantik məzmun*

M. Dilbazinin “Gül bağında el bayramı”, “Bahar”, “Muğanda bahar”, “Bahar gəlir”, “Göyçək Fatma”, M. M. Seyidzadənin “Qızılquş”, “Büllur qəsr”, “Sehrli saz”, “Cırtdan”, “Fitnə”, Ə. Abbasovun “Məlik Məmməd”, “Aqil və Sərvinaz”, “Keçinin qisası”, Ə.Səmədovun “Artıq tamah baş yarar”, “Əzablı günlərin sonu”, C. Məmmədzadənin “Tülkünün aqibəti”, M. Atəşin “Cırtdan”, R. Əlizadənin “Hamam hamam içində” kimi nağıl-pyesləri uşaqların duyğu və düşüncələrini, həyati bacarıqlarını, elat həyat tərzindən gələn məqamları əks etdirmək baxımından diqqətçəkici təsəvvür formalaşdırır. A. Səhhətin “Tağı və Nağı” pyesinin sərgilədiyi mənzərə, ifadə etdiyi məzmun və əks etdirdiyi məna qatları ilə əsaslı bir spesifikliyi nümayiş etdirir. Çətin həyat şəraiti içində çırpınan iki oğlanın qarının evində kirayədə yaşaması və onlara ünvanlanan məktub əsasında qurulan süjet hadisə zəminində problemləri, insan xarakterindəki müşkülləri göz önünə gətirir:

“Nağı: – Sən Allah, ay qarı nənə, bir bunu oxu görək Tağıdır, ya ki, Nağı?

Qarı: – Ay balam, mən oxumaq hardan bilirəm?

Tağı *(ağlayır)*: – Ay qarı nənə, Allah ölənlərinizə rəhmət eləsin, mənim rəhmətlik əmim Allah rəhmətinə gedib. İndi onun...

Nağı *(onun sözünü kəsər, ağlaya-ağlaya*): – Xeyr, ay qarı nənə, o rəhmətlik mənim əmimdir, kağız mənə yazılıb.

Tağı *(bərkdən)*: – Xeyr, mənə yazılıb.

Nağı: – Xeyr, mənə yazılıb *(qaşınır).*

*Vuruşmaq istəyirlər. Qarı aralaşdırır.*

Qarı: – Nənə sizə qurban olsun, vuruşmayınız, dayanınız, mən çöp gizlədim, hansınız tapsa kağız onundur. Hə, necəsiniz, razısınız ya yox?

Tağı: – Razıyam.

Nağı: – Mən də razıyam” (Səhhət, Şaiq, 2006, s. 97).

Burada hadisə axarı bir neçə istiqaməti özündə cəmləşdirməklə məsələlərin mahiyyətinin açılmasını zəruriləşdirir.

a) dövrün iqtisadi və sosial problemləri kontekstində mətn informasiyasının verdiyi məlumat;

b) insan xarakterinin açılması kontekstində Tağı və Nağının timsalında özünü göstərənlər;

c) ərəb əlifbasında yazmanın çətinlikləri və yaratdığı problemlər;

ç) məktubla tanışlığa qədər və ondan sonra baş verən hadisələrin ümumi mənzərəsi;

d) xalq yaddaşında olanlar səviyyəsində müəllif qayəsi və s.

Bütün bunlar yazılı ədəbiyyatda xalq dramlarından gələn ənənənin mövzu, hadisə və süjet axarında dinamik mənzərəsinin ümumi şəkildə təsvirini spesifikləşdirir.

M. M. Seyidzadənin “Sehrli saz”, “Büllur qəsr”, “Ata məhəbbəti”, “Qorxmaz”, “Cırtdan”, Ə. Abbasovun “Məlik Məmməd”, “Bahar nəğməsi”, “Alma bağı”, R. Heydərin “Göylər qonağı”, Ə. Məmmədovun “Cəsur uşaqlar”, M. Atəşin “Cırtdan”, T. Kazımovun “Qoçaq Polad”, S. Məmmədzadənin “Tülkünün aqibəti”, İ. Coşqunun “Ana laylası” və digər bu kimi əsərlər uşaqların milli-mənəvi dəyərlər əsasında tərbiyə olunması baxımından diqqətəlayiq təsəvvür formalaşdırır.

Ə. Səmədovun “Sehrlər aləmində” adlı nağıl-pyesi ayrı-ayrı epizodlar səviyyəsində əsaslı təsəvvürə söykənərək uşaq dünyasını yüksək əxlaqi dəyərlər müstəvisində əks etdirmək məqsədi daşıyır. Əsərdə Şahanənin pələngin qəfil hücumuna məruz qalması və Əhmədin ona kömək etməsi, ölüm təhlükəsi ilə üz-üzə qalan qızın acınacaqlı vəziyyətdən xilas olunması mənəvi dəyər kimi uşaq oxucusuna yüksək bədii ustalıqla çatdırılır: “Sinəsi və qolları pələng cırmağından qanamış Əhməd huşunu itirmiş Şahanəni qolları üstündə gətirib ehmallıca göy otlar üstünə uzadır. Əhməd qızın üzünə su çırpır. Şahanə gözlərini açır və yenidən hıçqırır. Bir qədər sonra özünə gəlir, durub oturur, heyrətlə ətrafa baxır.

Əhməd: – Qorxma, özünü ələ al.

Şahanə: – Aman, mən hardayam? Bu qan nədir?!

Əhməd: – Sakit ol, sakit ol.

Şahanə: – Sən kimsən?

Əhməd: – Mən odunçu Əhmədəm. Bəs sən kimsən?

Şahanə: – Mən şah qızı Şahanə!” (Səmədov, 1984, s. 250–281).

Burada hadisənin təqdim etdiyi təfsilat Şahanə və Əhmədin timsalında ciddi bir tərbiyəvi motivin önə çıxmasına səbəb olur və uşaqlarda xeyirxahlıq, yaxşılıq, mərdlik, cəsurluq, qorxmazlıq kimi əxlaqi dəyərlərin aşılanmasına kömək edir (Talıbov, Ağayev, 1993, s. 292).

Ümumiyyətlə, uşaq ədəbiyyatı öz məzmun xətti və fikir zənginliyi ilə müxtəlif kontekstlərdə – əmək tərbiyəsindən estetik tərbiyəyə qədər bir çox incəlikləri uşaq və yeniyetmələrin dünyagörüşünə təlqin edir. Xalq dramlarından və ədəbiyyatın yazılı qolundakı bədii zənginliklərdən qaynaqlanan uşaq dramları bu baxımdan daha geniş və təsirli imkanlara malikdir.

**Nəticə**

Tədqiqat nəticəsində aşagıdakı elmi qənaətlər əldə edilmişdir:

1. Folklorun zəngin yaradıcılıq potensialı müxtəlif aspektlərdə ədəbiyyatın yazılı qolu üçün qaynaq funksiyasını yerinə yetirir.

2. Xalq dramlarında əks olunan bədii zənginlik XX əsr boyunca müxtəlif mövzularda dram əsərlərinin yaranması üçün əsas olmuşdur.

3. A. Şaiqin "Gözəl bahar", "Danışan kukla", "İntiqamçı xoruz", "Eloğlu", "Vətən", "Bir saatlıq xəlifə"; M. M. Seyidzadənin "Sehrli saz", "Büllur qəsr", "Ata məhəbbəti", "Qorxmaz", "Cırtdan"; Ə. Abbasovun "Məlik Məmməd", "Bahar nəğməsi", "Alma bağı"; R. Heydərin "Göylər qonağı"; Ə. Məmmədovun "Cəsur uşaqlar"; M. Atəşin "Cırtdan"; T.Kazımovun "Qoçaq Polad"; S. Məmmədzadənin "Tülkünün aqibəti"; İ. Coşqunun "Ana laylası" və digər bu kimi əsərlər reallığın, əhvalat və hadisələrin bədii şəkildə təsvirində yüksək intellektual səviyyənin sərgilənməsi ilə seçilir.

4. Folklorun növ və janrlarında olan ünsürlər uşaq dramaturgiyasının zənginləşməsinə və uşaq dünyasının dolğun ifadəsinə şərait yaradır, bu sahədə ümumi mənzərənin formalaşmasında mühüm rol oynayır.

**Ədəbiyyat**

1. *Azərbaycan ədəbiyyatı inciləri. Nağıllar.* (1985). "Yazıçı".
2. *Azərbaycan klassik uşaq ədəbiyyatı antologiyası.* (1998). "Elm".
3. Əfəndiyev, P. (1992). *Azərbaycan şifahi xalq ədəbiyyatı.* "Maarif".
4. Hacıyev, A. (2010). *Ədəbiyyatşünaslığın əsasları.* "ADPU nəşriyyatı".
5. Hasilova, X. (1979). *Məhəbbət olanda.* "Yazıçı".
6. Xəlil, Z. (2008). *Seçilmiş əsərləri.* Altı cilddə, II c. "ADPU nəşriyyatı".
7. Xəlil, Z., Əsgərli, F. (2011). *Uşaq ədəbiyyatı.* "ADPU nəşriyyatı".
8. Məmmədov, M., Salamoğlu, T., Babayev, Y. (1998). *İki əsrin maarif işığında.* Azərbaycan klassik uşaq ədəbiyyatı antologiyası. "Elm".
9. Məmmədova, Ş. (2014). *Uşaq ədəbiyyatı* (Mirvarid Dilbazinin uşaq yaradıcılığı). "ADPU nəşriyyatı".
10. Namazov, Q. (2007). *Azərbaycan uşaq ədəbiyyatı.* "Bakı Universiteti".
11. Rzaquluzadə, M. (1956). *Ovçu Elişlə qoçaq Aytəkinin nağılı.* "Uşaqgəncnəşr".
12. Seyidzadə, M. (1966). *Seçilmiş əsərləri.* İki cilddə, II c. "Azərnəşr".
13. Səhhət, A., Şaiq, A. (2006). *Seçilmiş əsərləri.* "Çaşıoğlu".
14. Səmədov, Ə. (1984). *Hərənin bir ulduzu.* "Gənclik".
15. Şaiq, A. (2005). *Seçilmiş əsərləri.* Üç cilddə, II c. "Avrasiya".
16. Talıbov, Y. R., Ağayev, Ə. A., İsayev, İ. N., Eminov, İ. (1993). *Pedaqogika.* "Maarif".
17. Təhmasib, M. H. (1965*). Çiçəkli dağ.* "Azərnəşr".
18. Vəliyev, V. (1985). *Azərbaycan folkloru.* "Maarif".